# Sənət və ürək dostum

## (Bəstəkar Oqtay Rəcəbovun anadan olmasının 75 illiyi münasibətilə)



**Cavan olanda adama elə gəlir ki, altmış-yetmiş yaşlı adamlar pirani qocalardır. Amma bu yaşa çatandan və bu yaşı keçəndən sonra görürsən ki, yox, elə deyil. Türk yazıçısı Əziz Nesin Bakıya ilk səfərində öz təəssüratını qələmə alarkən yazmışdı: "Mən Azərbaycanda 70-75 yaşlı cavanlar gördüm." Mən Oqtay Rəcəbovla görüşəndə həmişə Əziz Nesinin bu sözlərini xatırlayıram.**

Oqtay müəllim həmişə sayılıb-seçilən bəstəkarlarımızdan olub. Özü də təkcə Azərbaycanda yox. Təsadüfi deyildir ki, bu yaxınlarda Moskva Dövlət Pedaqoji Universitetində bəstəkarın 75 illiyinə həsr olunmuş elmi konfrans keçirilmişdir. Pedaqoji elmlər doktoru, professor Oqtay Rəcəbov onlarca monoqrafiya, dərslik, dərs vəsaiti və tədris proqramlarının müəllifidir. Onun bu əsərləri konservatoriya tələbələri, uşaq musiqi məktəbləri, pedaqoji kolleclərin musiqi fakültələrinin şagirdləri üçün dəyərli dərs vəsaitidir. Bəstəkarın tədqiqat işlərində dahi Üzeyir Hacıbəylidən başlamış gənc bəstəkarlarımıza qədər demək olar ki, əksər sənət xadimlərimizin əsərləri geniş təhlil olunmuşdur.

Oqtay Rəcəbovun yaradıcılığında mahnı janrı xüsusi yer tutur. Bəstəkarın "Azərbaycanım", "Zəfəran", "Səndən xəbərsiz", "Novruz gəldi", "Sevgi valsı", "Mübarəkdir toyunuz" mahnıları dillər əzbəridir. Bu nəğmələr içərisində, zənnimcə, "Necə unudum səni" mahnısı Oqtay Rəcəbovun mahnı yaradıcılığının şah əsəridir desəm, səhv etmərəm. Bu mahnının ilk ifaçısı sevimli müğənnimiz Flora Kərimova olub. Oqtay Rəcəbov təkcə bu bənzərsiz nəğməni yaratsaydı belə, yenə ürəklərə yol tapacaq, yaşayacaqdı. Bənzərsizlik isə Oqtay Rəcəbovun bütün yaradıcılığına xas olan bir xüsusiyyətdir.

Oqtay Rəcəbovla yaxın dostam və bu dostluqla həmişə fəxr etmişəm. Onunla birlikdə yazdığımız bir sıra əsərlər də var. Musiqisi Oqtay müəllimə, sözləri mənə aid olan müştərək operettalarımız, mahnılarımız tamaşaçı və dinləyicilər tərəfindən rəğbətlə qarşılanıb. Bu əsərlər içərisində Musiqili Komediya Teatrında tamaşaya qoyulmuş "Əlin cibində olsun", "Şeytanın yubileyi" operettalarını, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevə həsr olunmuş simfoniya-rekviyemi, "Xocalı harayı" simfoniyasını və başqa sənət nümunələrini misal göstərmək olar.

Oqtay Rəcəbov əməkdar müəllim, Prezident təqaüdçüsü, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının akademikidir. O, "Göyçək Fatma" cizgi film-operasının, "Xeyir və Şər", "Sərçəcik" uşaq operalarının müəllifidir. Onun yaradıcılığında kinofilmlər üçün yazdığı musiqilər də xüsusi yer tutur. Bəstəkarın "Ağ atlı oğlan", "Cavad Heyət varlığı", "Hər şey yaxşılığa doğru" , "Humayın yuxusu", "Kəndimizin qəhrəmanı" və s. filmlərə yazdığı musiqilər böyük rəğbətlə qarşılanmışdır.

Bəstəkarın yaradıcılığı bir sıra monoqrafiya və dəyərli elmi məqalələrdə, portret oçerklərdə öz parlaq əksini tapmışdır. Bu əsərlərdə Oqtay Rəcəbovun keçdiyi həyat yolu, müxtəlif janrlı bəstələrinə verilən yüksək qiymət və onun musiqi təşkilatçısı kimi xidmətləri geniş şərh olunmuşdur. Oqtay müəllim uzun illər "İncəsənə Gimnaziyası"na rəhbərlik etmiş, gənc musiqiçilərin yetişdirilməsində əlindən gələni əsirgəməmişdir.

Oqtay Rəcəbov haqqında bir çox sənət xadimləri dəyərli fikirlər söyləmişlər. Bunların içərisində, zənnimcə ən qiymətlisi məşhur bəstəkarımız Tofiq Quliyevin sözləridir. O yazırdı: "Tarixdə elə şəxsiyyətlər vardır ki, onlar yalnız bir xalqa məxsus olmurlar. Bəşəri musiqi kimi bəşəri adamlar, bəşəri şəxsiyyət vardır. Onlar öz xalqının elmini, mədəniyyətini inkişaf etdirməklə elinin, obasının zənginləşməsinə, millətinin dünya xalqları arasında tanınmasına səbəb olurlar. Belə şəxsiyyətlərdən biri də bəstəkar pedaqoq Oqtay Rəcəbovdur".

Bu yaxınlarda Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə musiqişünas Rauf İmanovun Oqtay Rəcəbov haqqında monoqrafiyası yüksək poliqrafiq səviyyədə işıq üzü görmüşdür. Kitabda bəstəkarın həyat və yaradıcılığı geniş şəkildə işıqlandırılmışdır.

Mən sənət və ürək dostum Oqtay Rəcəbova çoxşaxəli fəaliyyətində daha böyük uğurlar arzulayıram və bu yazımı ona müraciətlə bitirirəm:

- Əzizim Oqtay! Səni 75 illik yubileyin münasibətilə ürəkdən təbrik edirəm! İrəlidə Səni daha gözəl günlər və yaradıcılıq uğurları gözləyir. Yaşamağa dəyər, Oqtay müəllim!

**Aqşin BABAYEV**